Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

ELDAR NURİYEV

# HEYDƏR ƏLİYEV

## VƏ AZƏRBAYCANDA TİKİNTİ KOMPLEKSİNİN İNKİŞAFI

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ŞƏRQ-QƏRB

**Eldar Nuriyev. Heydər Əliyev və Azərbaycanda tikinti kompleksinin inkişafı**
Bakı, "Şərq-Qərb", 2023, 252 səh.

ISBN 978-9952-567-41–0

*Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının 17.01.2023-cü il tarixli (protokol №1) qərarı ilə nəşr olunur.*

**Rəyçi:** **Vahid Novruzov,**
*İqtisad elmləri doktoru, professor*

Oxuculara təqdim olunan "Heydər Əliyev və Azərbaycanda tikinti kompleksinin inkişafı" kitabında 1960-cı illərdə dərin böhran keçirmiş ölkə iqtisadiyyatı, o cümlədən tikinti sektoru və onun maddi-texniki bazası, 1969–1982-ci illər ərzində görülən tədbirlər nəticəsində bu sahənin sürətlə inkişaf etdirilməsi, şəhər və rayonlarda mühüm sənaye, sosial, mədəni, xidmət obyektlərinin vaxtlı-vaxtında tikilib istifadəyə verilməsindən, həmçinin ölkə iqtisadiyyatının inkişafından bəhs edilir. Bundan başqa, kitabda Heydər Əliyev məktəbini keçmiş və vaxtilə şəxsən onun tərəfindən rəhbər vəzifələrə təyin edilmiş korifey kadrların istifadəyə verilmiş obyektlərdə Ulu Öndərlə görüşləri və xatirələri əks olunmuşdur.

Kitabda həmçinin Ulu Öndərin layiqli davamçısı – Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən erməni daşnaklarının doğma torpaqlarımızdan qovulması, işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın həyata keçirilməsi və Azərbaycanın müasir inkişaf tarixinin yazılması kimi faktlar da öz əksini tapmışdır.

*Kitabın hazırlanmasında, statistik və digər informasiyaların toplanması və işlənilməsində iştirak etdiklərinə görə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Ramiz İdrisoğluna, Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun İqtisadiyyat və tikinti normaları şöbəsinin baş mütəxəssisi Təyyar Əliyevə, aparıcı mütəxəssis Nərgiz Salamovaya, iqtisadçı Şahin Əliyevə və mütəxəssis Nərmin Seyidovaya minnətdarlığımı bildirirəm.*

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© Eldar Nuriyev, 2023

***Kitab Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və dövlət xadimi, unudulmaz Heydər Əliyevin 100 illiyinə həsr olunur.***



***Hər bir şəxsin milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!***

***Ümummilli lider HEYDƏR ƏLİYEV***

***Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!***

***İLHAM ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə



çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin

Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissəsi olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*

# GİRİŞ

Azərbaycan tarixinin 30 ildən artıq bir dövrü dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Ötən əsrin 60-cı illərinin sonlarında və 90-cı illərin əvvəllərində Heydər Əliyevin hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın həyatında çox ağır sınaqlar dövrünə təsadüf etmişdir. O zaman Sovet İttifaqının geridə qalmış respublikalarından biri kimi tanınan Azərbaycan Heydər Əliyevin Birinci katib seçilməsindən sonra çox keçmədi ki, ardıcıl inkişaf yoluna qədəm qoydu. Ölkə həyatının bütün sahələrində quruculuq işləri geniş vüsət aldı, Azərbaycanın gələcəkdə siyasi müstəqilliyinin möhkəm təməli yaradıldı.

Azərbaycan Respublikasında digər sahələr kimi tikinti sahəsinin inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə ölkənin tikinti-quruculuq sahəsində, şəhərsalma və memarlığın inkişafında keyfiyyətcə yeni dövr başlamışdır. Bakı şəhəri məhz bu illərdə paytaxt tipli böyük şəhərə çevrilmişdir. Bakının ən görkəmli yerlərində gözəl memarlıq ansamblları yaradılmış, şəhərin simasını müəyyən edən müasir binalar ucaldılmışdır. Bunların tam əksəriyyəti Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə layihələndirilib tikilmişdir. Bu illərdə Bakı şəhərinin Baş Planının hazırlanmasında Heydər Əliyevin əvəzsiz rolu olmuş və dahi şəxsiyyət çağdaş şəhərsalma tələblərinə cavab vermək baxımından paytaxtımızın gələcək taleyini böyük uzaqgörənliklə həll etmişdir.

1980-ci illərdə Bakı şəhərinin gözəlliyini tamamlayan, paytaxtımızı bəzəyən bir çox mühüm, unikal bina və qurğular – Dövlət Sirki, Heydər Əliyev Sarayı, "Bakı", "Qarabağ", "Azərbaycan", "Moskva", "Abşeron" mehmanxanaları, Bakı Dəmir Yolu Vağzalı, "Gülüstan" sarayı, "Şərq bazarı" ticarət mərkəzi, İdman Sarayı, Yüngül atletika maneji, Azərbaycan Respublikası Prezident Aparatının binası və s. binalar şəhərin memarlıq görkəmini daha da gözəlləşdirmişdir.



Heydər Əliyev 1982–1987-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən də Azərbaycanın problemlərini daim diqqət mərkəzində saxlamışdır.

1993-cü ilin iyun ayında Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışı sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü. Tam inamla söyləmək olar ki, əgər o vaxt ölkədə cərəyan edən proseslərə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, bu gün müstəqil Azərbaycan dövləti haqqında danışmaq mümkün deyildi.

1993-cü ildən 2003-cü ilədək olan on il ərzində onun həyata keçirdiyi nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

İstər 1969–1982-ci illərdə, istərsə də 1993–2003-cü illərdə respublikada aparılan quruculuq işləri zamanı Heydər Əliyev tikintilərə tez-tez baş çəkmiş, inşaatçıların problem və çətinlikləri ilə şəxsən tanış olmuş, onları yerindəcə həll etmişdir. Paytaxtda və bölgələrimizdə elə bir əhəmiyyətli obyekt yox idi ki, Heydər Əliyev onun tikintisinə dəfələrlə baş çəkməsin, açılışlarını eləməsin. Və bu tədbirlərdə iştirak edən inşaatçı və memarlar Ümummilli Liderlə olan görüşlərdən aldıqları təəssüratlarını ömürlük bir xatirə kimi yaddaşlarında yaşadırlar.

Heydər Əliyevin ruhu şaddır, zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti etibarlı əllərdədir, başladığı böyük işlər eyni əzm və iradə ilə davam etdirilir.

Heydər Əliyevin qüdrətli zəkasından güc almış inkişaf strategiyası İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik yollarında ardıcıl surətdə irəliləməsini, xalqımızın daha firavan günlərə qovuşmasını təmin edir.

# I FƏSİL

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN BİRİNCİ DÖVRÜ. MÜSTƏQİLLİYƏ DOĞRU BÖYÜK DÖNÜŞ VƏ MİLLİ OYANIŞIN BAŞLANMASI (1969–1982)

***Keçmiş Sovetlər İttifaqında bu dövr digər respublikalar üçün "durğunluq illəri" sayılırdısa, Azərbaycan, əslində, inkişaf dövrünü yaşayırdı.***

***Heydər Əliyev***

### 1.1. Ölkədə tikinti kompleksinin müasir vəziyyəti və inkişaf istiqamətləri

Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən ötən əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında, o cümlədən xalq təsərrüfatının ən vacib sahələrindən biri olan tikintidə mənfi meyillər özünü göstərməyə başlamış və bu, əhalinin sosial vəziyyətinə təsir göstərən əsas səbəblərdən biri olmuşdur. Belə ki sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyəsində geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu.

Tikintidə icrada olan çoxsaylı obyektlərin tikilmə müddəti normativi xeyli aşırdı. Bu isə tikilən sənaye, sosial obyektlərin, əsasən də mənzillərin tikintisində neqativ hallara gətirib çıxarmışdı. Bunun nəticəsində tikintisi gecikdirilən, vaxtında istifadəyə verilməyən, yarımçıq qalmış tikililərin həcmi normativdən 1,5–2 dəfə artıq idi.



Beləliklə, 60-cı illərdə respublika iqtisadiyyatı, o cümlədən onun ən vacib sahələrindən biri olan tikinti sektoru bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoydu. Yaranmış vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Həmin günləri xatırlayarkən yadıma düşən maraqlı bir epizodu oxucularla bölüşmək istəyirəm.

*1969-cu ilin mart ayı idi. Azərbaycan KP MK-da çalışırdım. Bir qayda olaraq, aparatın məsul işçiləri tərtib olunmuş qrafik üzrə Birinci katibin qəbul otağında hər gün axşam saat 18:00-dan səhər 9:00-a kimi növbətçilik edirdilər. Bir gün mənim növbətçi olduğum zaman gecə saat 2-3 radələrində "VÇ" deyilən birbaşa telefonla Moskvadan zəng olundu. Dəstəyi götürüb rus dilində: "Məsul növbətçi Eldar Nuriyev, qulaq asıram", – dedim. "SSRİ Müdafiə Nazirliyindən general İvanov narahat edir. Xəbər verirəm ki, Tbilisiyə "xüsusi reys"lə uçan təyyarə hava şəraiti pis olduğundan enə bilmədiyi üçün onun Bakıya uçması qərara alınmışdır. Xahiş edirik, lazımi ölçü götürmək üçün rəhbərliyə təcili xəbər verəsiniz". Həyatımda birinci dəfə idi ki, belə çıxılmaz vəziyyətə düşmüşdüm. Tərəddüd içində idim. Gecənin bu vaxtında kimə zəng edəcəyim haqqında düşünürdüm. O zaman birinci katib mərhum Vəli Yusif oğlu Axundov, Nazirlər Sovetinin sədri Ənvər Nəzər oğlu Əlixanov idi. Qərara gəldim... Əlixanova zəng etdim. Üzr istəyib əhvalatı ona danışdım. "Heydər Əliyevə zəng vurun", – dedi. Mən məcburiyyət qarşısında qalaraq gecənin bu vaxtında hökumət telefonu ilə Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general Heydər Əliyevin evinə zəng etdim. Dəstəyi mülayim səsli bir xanım götürdü (çox güman ki, rəhmətlik Zərifə xanım idi) və sorğuma cavab verərək dedi: "Heydər Əliyev işdədir". Mən təşəkkür edib Heydər Əliyevin "üç nömrəli" hökumət telefonuna zəng etdim. Salamlaşaraq əhvalatı ona çatdırdım. Sakit və əmin səslə dedi: "Hər şey məlumdur. Təyyarə 20 dəqiqədən sonra qəbul olunacaq. Çox sağ olun". Telefonun dəstəyini yerinə qoydum və dərindən nəfəs alaraq rahat oldum.*



Hörmətli oxucu,

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.